**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Paşa Allahverdi oğlu Mahmudov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edlmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə və bank işi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Natiq Əli oğlu Cavadov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Nizami Cəlal oğlu Qafarov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Famil Vəli oğlu Rüstəmov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Mansur Akif oğlu Mədətov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: ____________ | iqtisad elmləri doktoru, professor<br>**Elşən Əli oğlu İbrahimov** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının təsərrüfat dövriyyəsinə cəlb edilməsinin reallaşdırılması və dayanıqlı inkişafının təmin edilməsi müasir dövrün prioritet məsələlərindən biridir. Uzun illər Ermənistanın işğalı altında qalmış bu ərazilər 2020-ci il 44 günlük Vətən müharibəsində qalibiyyət nəticəsində azad edildikdən sonra bu ərazilərin bərpası ölkənin sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində və iqtisadi siyasətində mühüm yer tutmuşdur. İşğal nəticəsində Azərbaycan Respublikasına külli miqdarda ziyan dəymişdir. Dəymiş ziyan barəsində Azərbaycan Hərbi Prokurorluğunun Xüsusi İstintaq İdarəsinin rəisi Emil Tağıyev 1918-ci il - Azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunmuş elmi-praktik konfransda çıxış edərək bildirib: *"Buna rəy verilməsi Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal etməsi nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupa həvalə edilib. İlkin hesablamalara görə, dəymiş maddi ziyan 818,88 milyard ABŞ dolları təşkil edir".*[1]

İşğaldan azad olunmuş ərazilərdə iqtisadi infrastrukturun yenidən bərpası, iqtisadi və sosial sahələrin yenidən qurulması, regionda innovasiya yönümlü iqtisadiyyatın inkişafı üçün cəlbedici investisiya mühitinin yaradılması dövlətin sosial-iqtisadi inkişaf strategiyasının əsasını təşkil edir. Bu istiqamətdə ən əsas məsələlərdən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi infrastrukturun tədricən formalaşdırılmasıdır.

İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyinin artırılması üçün yerli və xarici investorlara əlverişli investisiya mühitinin yaradılmasının tədqiqi tələb olunur. Ölkə iqtisadiyyatının diversifikasiya siyasəti həm də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında və bu ərazilərdə davamlı iqtisadi inkişafın formalaşması prosesində həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılacaq

---

[1] https://modern.az/az/aktual/159720/isalneticesinde-azerbaycana-deymis-ziyanaciqlandi-818-milyard-880-milyon-dollar/

müəssisələrin texnoloji səviyyəsini və innovasiya mühitini artırmaq və onların inkişafını təşviq etmək üçün xarici investisiyalardan, innovativ texnologiyalardan və daxili investisiya potensialından səmərəli istifadə etmək zərurəti yaranmışdır. Torpaqların işğaldan azad olunmasından sonrakı mərhələdə bu bölgələrə texnoloji investisiyalar vençur kapitalı, dövlət maliyyələşdirməsi, mövcud maliyyə resurslarının səmərəli istifadəsi və qənaəti yolu ilə artırıla bilər. İri həcmli investisiyaların ilkin mərhələdə işğaldan azad edilmiş iqtisadi rayonlara yönəldilməsinin təmin edilməsi çətin olduğundan, kiçik və orta investisiyaların cəlb edilməsi gələcəkdə daha böyük investisiyaların cəlb edilməsinə kömək edəcəkdir.

İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyinin artırılması üçün vergi güzəştləri, xarici sərmayələrin qorunması mexanizmləri, şəffaf biznes mühitinin formalaşdırılması və innovasiya yönümlü texnologiyaların tətbiqi kimi amillər mühüm rol oynayır.İşğaldan azad olunmuş ərazilərdə investisiya imkanlarının öyrənilməsi innovasiya yönümlü iqtisadi inkişafın sürətləndirilməsinə töhfə verə bilər.

Azad edilmiş ərazilərin investisiya cəlbediciliyini artırmaqda ən vacib məsələlərdən biri kənd təsərrüfatı sektorunun resurs potensialından iqtisadi inkişaf tendensiyalarına əsasən necə səmərəli istifadə etməkdir. Bu məqsədə çatmaq üçün əsas sahə resurs potensialının mövcud vəziyyətini və inkişaf perspektivlərini təhlil edən məlumatların etibarlılığını artırmaqdır. Buna görə də, azad edilmiş ərazilərin investisiya cəlbediciliyini artırmaq üçün müasir iqtisadi şəraitdə sistemli tədqiqatların tələblərinə cavab vermək üçün azad edilmiş ərazilərin inkişafı baxımından ehtiyat potensialının inkişaf perspektivlərini təhlil etmək, qiymətləndirmək vacibdir. Müasir iqtisadi şəraitdə kənd təsərrüfatının inkişafı kənd təsərrüfatı üzrə iqtisadi siyasətin başlıca prioritetlərindən biridir və bu, strateji tədbirlərin həyata keçirilməsinə və Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafa dair Dövlət Proqramı,[2] Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının

---

[2] “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 yanvar 2019-cu il, № 500

istehsalı və emalı üzrə Strateji Yol Xəritəsinin,[3] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər,[4] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının,[5] "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın[6] tətbiqinə kömək edəcəkdir. Bunlardan başqa "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması haqqında"Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli sərəncamı da vardır.Bütün bunlar bu dissertasiya mövzusunun praktik əhəmiyyətini nümayiş etdirir və tədqiqat istiqamətini müəyyən edir. Azərbaycanda investisiya fəaliyyətini tənzimləyən ümumi hüquqi, iqtisadi və sosial şərtlər, eləcə də xarici investisiyaları tənzimləyən hüquqi prinsiplər formalaşdırılmışdır. 22 iyun 2022-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu yenidən qəbul edilmişdir.

İşğaldan azad edilmiş ərazilərdə mövcud olan mina təhlükəsinin aradan qaldırılmaması, ixtisaslı kadr çatışmazlığı,bəzi ərazilərdə iqtisadi və sosial infrastrukturun tam bərpa edilməməsi kimi problemlər vardır. Bu problemlərin həlli üçün dissertasiyada kompleks yanaşma, o cümlədən dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi və beynəlxalq təcrübənin tətbiqi mexanizmindən də istifadə olunmuşdur. Bu mənada

[3] Azərbaycan Respublikasının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 06 dekabr 2016-cı il, №1138

[4] Azərbaycan Respublikasının Prezidentinin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030:Sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"in təsdiqinə dair sərəncamı. Azərbaycan Dövlət İnformasiya Agentliyi "Azərtac". URL: https://azertag.az/ru/xeber/Rasporyazhenie_Prezidenta_Azerbaidzhanskoi_Respubliki_Ob_utverzhdenii__quotNacionalnyh_prioritetov_socialno_ekonomicheskogo_razvitiya_Azerbaidzhan_2030_quot-1703259 (müraciət tarixi: 22.04.2024)

[5] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası.Bakı şəhəri,2022-ci il,83 s. (https://president.az/az/articles/5672)

[6] Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli 3587 nömrəli Sərəncamı.

azad olunmuş ərazilərin investisiya cəlbediciliyinin artırılması sahəsində yeni çağırışlar dissertasiyanın mövzusunun seçilməsini müəyyən etmişdir və onun aktuallığını şərtləndirmişdir.

Mövzunun işlənmə dərəcəsinə aid isə onu qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyinin artırılması ayrı-ayrı aspektləri Səmədzadə Z.Ə., Quliyev E.A., Ataşov B.X., Nuriyev Ə.X., Quliyeva A.E., Bayramov V.İ., Abbasov A.F., Cavadov Ə.N., Hüseynov M.C., İbrahimov İ.H., İbrahimov E.Ə., Məmmədova E.B., İmanov N.M., İsayev S.Z., Vəliyeva S.İ., Həsənova P.Ə., Hüseynov M.M., Qasımlı V.Ə., Əsədov A.M., İbrahimov F.M., Qafarov N.C., Manafov Q.N., , İsmayılov E.M. və s. kimi Azərbaycan alimlərinin əsərlərində tədqiq edilmişdir.

Xarici ölkələrdə ərazilərin investisiya cəlbediciliyinin artırılması sahəsində tədqiqatlar Bifov A.A.,Valinurova, L.S., Yelsukov M.Y., Maevskiy A.V., Çeberko Y.F.,Çuprov R.N., Yakovleva T.A., Kabanova İ.Y., Moskvin V.A., Makşin V.N., Eldridge, M., Hawkins, R., Mitra-Majumdar, M. və s. kimi iqtisadçi-alimlər tərəfindən aparılmışdır.

Lakin bu tədqiqatlarda işğaldan azad edilmiş və xaraba vəziyyətə salınmış ərazilərin investisiya cəlbediciliyinin formalaşdırılması və investisiya siyasəti məsələlərinin spesifik xüsusiyyətlərini nəzərə almaqla kompleks şəkildə tədqiq olunmamışdır. Tədqiqatımda həmin məsələni daha konkret həyata keçirməyə cəhd etmişəm.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın işğaldan azad olunan ərazilərində yeni yaradılan iqtisadi rayonlar təşkil edir. Tədqiqatın predmeti kimi isə həmin iqtisadi rayonların investisiya cəlbediciliyi potensialı və onun təkmilləşdirilməsi məsələləri üzrə iqtisadi münasibətlər, qanunayğunluqlar, üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin investisiya cəlbediciliyinin artırılması yollarının müəyyən edilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- investisiya cəlbediciliyinin nəzəri və metodoloji məsələlərinin tədqiqi;

- investisiya cəlbediciliyinin müəyyən edilməsinə dair metodoloji yanaşmaların dəqiqləşdirilməsi;
- işğaldan azad edilmiş ərazilərin investisiya cəlbediciliyinin təmin edilməsində qabaqcıl xarici təcrübənin tətbiqi imkanlarının müəyyən olunması;
- işğaldan azad edilmiş ərazilərdə yaşıl energetikaya cəlb olunmuş investisiyaların perspektiv istiqamətlərinin müəyyən edilməsi;
- işğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı sahəsinə investisiyaların cəlb olunması imkanlarının qiymətləndirilməsinin aparılması;
- işğaldan azad edilmiş ərazilərdə turizm sektoruna xarici investisiyaların cəlb olunmasının təhlili;
- işğaldan azad edilmiş ərazilərin investisiya cəlbediciliyinin artırılmasına dair inkişaf proqramının yaradılması;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının investisiya cəlbediciliyinin artırılmasında klaster yanaşmalarından səmərəli istifadə yollarının müəyyən olunması;
- investisiyaların cəlb olunması ilə ərazi bələdiyyələrinin fəaliyyətinin təkmilləşdirilməsi məsələlərinin tədqiq olunması.

**Tədqiqatın metodlarının** əsasını investisiya cəlbediciliyinə həsr olunmuş tədqiqatlarda tətbiq olunan müasir analitik üsullar və sistemli yanaşmalar təşkil edir. Dissertasiya işində statistik təhlil, məntiqli ümumiləşdirmə, proqnozlaşdırma, habelə qruplaşdırma və müqayisəli qiymətləndirmə üsullarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sahibkarlıq subyektlərinin ümumi investisiya cəlbediciliyi, onun iqtisadi fəaliyyət həyata keçirdiyi iqtisadi sahənin innovasiya cəlbediciliyi və ayrıca olaraq sahibkarlıq subyektlərinin mənfəətliliyindən ibarətdir;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ümumilikdə cari investisiya mühitinin, onun potensialının, risk səviyyəsinin müəyyən edilməsi üçün istifadə olunan amillər məcmusunun sistemli təhlilinin yerinə yetirilməsi tələb olunur;
- Nəzərdən keçirilən kateqoriyanın iqtisadi təbiətinin izahı üçün

aşağıdakı tərif təklif olunur: *investisiya cəlbediciliyi* – müəssisənin iqtisadi inkişafının cari və potensial səviyyəsini əks etdirən, kapital qoyuluşu mümkünlüyünü açıqlayan iqtisadi səciyyəsidir;

- Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadiyyat sahələrinə yeni texnologiyaların tətbiqinə investisiya axınının yönəldilməsi üzrə məqsədyönlü siyasət aparmaları yüksək rəqabət qabiliyyəti ilə fərqlənir;
- Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm sektorunun inkişafı üçün müəyyənləşdirilmiş prioritetləri vardır ki, onlar işğaldan azad olunmuş bu ərazilərin turizm potensialını maksimum dərəcədə reallaşdırmağa imkan verər;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sektorun investisiya potensialının tədqiqi nəticələrinə əsasən, bu ərazilərdə investisiya cəlbediciliyinin artırılması üçün xüsusi tədbirlər proqramının yaradılması zərurəti yaranmışdır.”Ağıllı kənd” belə proqramlardandır.
- Qarabağ və Şərqi Zəngəzurda turizm klasterinin zəruri strukturu müxtəlif növlərdə turizm məhsulu istehsal edən və ya formalaşdıran çoxsaylı şirkətləri (turizm operatorlarını) əhatə etməlidir;

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- sahibkar subyektinin investisiya cəlbediciliyinin formalaşdırılmasının əsas elementləri müəyyən edilib;
- investisiya iqliminin, onun potensialın, risk səviyyəsinin müəyyən edilməsi üçün istifadə olunan amillər məcmusu təsnifatlaşdırılıb;
- Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatına yerli və xarici investisiyaların cəlb edilməsi proqramı təklif olunub (s. 108);
- Qarabağda və Şərqi Zəngəzurda turizm klasterinin özəlliyinin zəruri strukturu tövsiyə olunub;
- Azərbaycanın yaşıl enerji kursunda Qarabağ və Şərqi Zəngəzur günəş elektrik stansiyalarından elektrik enerjisi üçün sabit tariflərin tətbiqi ilə investorlar üçün regionun cəlbediciliyinin artırmaq olar;

- Zəngilanda 50-100 MVt gücündə 2-3 pilot günəş elektrik stansiyasının işə salınması ilə İldə 300-500 milyon kilovatsaat enerji istehsal etməklə, həmçinin 500 iş yerinin yaradılması mümkündür;
- Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, Qarabağ və Şərqi Zəngəzurda 5000 ev təsərrüfatı üçün dam örtüyü günəş elektrik stansiyalarının quraşdırılması üçün subsidiyaların (5-10 kVt gücündə) tətbiqi Böyük Qayıdış Proqramına uyğun öz torpaqlarına qayıdan həmin sakinlərin enerji xərclərinin 20% azaldılması mümkün ola bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda işğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyinin artırılmasına dair irəli sürülmüş konkret təklif və tövsiyələr, təklif olunmuş metodoloji yanaşmalar bu mövzu ətrafında gələcəkdə aparılacaq tədqiqatlar üçün etibarlı mənbə ola bilər.

Dissertasiyada əks olunan müddəalar müvafiq layihə və proqramlar hazırlanarkən, hökümət təşkilatlarının fəaliyyətində, həmçinin ali təhsil müəssisələrinin "Mikroiqtisadiyyat" fənnin tədrisində istifadə oluna bilər ki, bu da tədqiqatın praktiki əhəmiyyətini şərtləndirir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas mahiyyəti, burada müəllif tərəfindən irəli sürülən nəzəri-metodoloji və praktiki xarakterli mülahizələr, yeni elmi yanaşmalar, təkliflər və tövsiyələr müxtəlif səviyyəli elmi-praktiki konfranslarda məruzə edilmişdir. Ümumilikdə 6 elmi məqalə (1-i xaricdə olmaqla) və 3 tezis (1-i xaricdə olmaqla) müəllif tərəfindən çap edilmişdir. Tədqiqatın əsas müddəaları "İşğaldan azad edilmiş ərazilərdə investisiya fəaliyyəti" (Bakı, 2024), "İşğaldan azad edilmiş ərazilərdə xarici investisiyaların rolu" (Gəncə, 2024), "Некоторые аспекты комплексной оценки инвестиционной привлекательности" (Тольятти, 2025) adlı tezislərdə öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlərdən "İnvestisiya cəlbediciliyinin kateqoriyası və onun müasir məzmunu" (Bakı, 2024), "İşğaldan azad edilmiş ərazilərə xarici investisiyaların cəlb edilməsi potensialı" (Bakı, 2024), "Кластеры как инструмент инвестиционной привлекательности Карабаха и Восточного Зангезура" (Москва, 2025) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 12834 işarə, birinci fəsil 68807 işarə, ikinci fəsil 84571 işarə, üçüncü fəsil 65925 işarə, nəticə 7114 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı 24452 işarədən ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə 239251 işarə təşkil edir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin **"İnvestisiya cəlbediciliyinin nəzəri-metodoloji məsələləri"** adlı I fəslində investisiya cəlbediciliyinin mahiyyəti və iqtisadi məzmunu, investisiya cəlbediciliyinin müəyyən edilməsinə metodoloji yanaşmalar, işğaldan azad edilmiş ərazilərin investisiya cəlbediciliyinin təmin edilməsində qabaqcıl xarici təcrübənin tətbiqi kimi məsələlər tədqiq olunur.

İqtisadiyyat müxtəlif problemləri nəzərdən keçirir. Əsas tədqiqat mövzularından biri investisiya və onun cəlb ediciliyinin artırılması aspektləridir. Digər bölmələrdə olduğu kimi, burada da nəzəriyyə və praktiki məsələlərə yer verilmişdir. Onlara xüsusi diqqət yetirilməlidir, çünki işğaldan azad olunmuş regionun sosial-iqtisadi inkişafı bu ərazilərə qoyulmuş investisiya qoyuluşlarından asılıdır.

İşğaldan azad olunmuş ərazilərin investisiyalar üçün cəlbediciliyi regional iqtisadiyyata qoyulmuş kapitalın keyfiyyətindən asılıdır. Lakin, nəzərə almaq lazımdır ki, alimlər onların mahiyyəti və iqtisadi məzmunu ilə bağlı ümumi nəticəyə gələ bilməyiblər. İşğaldan azad olunmuş ərazilərin investisiyalar üçün cəlbediciliyinə dair klassik yanaşmaya yerli və xarici iqtisadi ədəbiyyatlarda müxtəlif izahlar verilmişdir, buna görə də qiymətləndirmə xarakteristikaları və

elementləri komplektinin natamam olması üzündən onun şərhini tam adlandırmaq mümkün deyil. “İnvestisiya cəlbediciliyi” kateqoriyasının mahiyyətinin açıqlanmasına keçməzdən öncə əsas komponentləri müəyyən etmək lazımdır.

İnvestisiyalar – perspektivdə vəsaiti alan regiona və ya təsərrüfat subyektinə modernləşdirmə və ya digər istehsalat və sosial layihələrə yatırıla biləcək mənfəət gətirəcək aktivlərin əldə olunmasıdır. İnvestorlar, sərbəst vəsaiti yatırmazdan öncə təkcə onların ölçüsünü deyil, həm də investisiya obyektini müəyyən etməlidirlər. Qoyulmuş kapitalın istifadəsinə nəzarət etmək də vacibdir.

İnvestisiya prosesində, bir qayda olaraq, iki kontragent iştirak edir. İnvestor kimi müvəqqəti sərbəst kapitalın sahibi çıxış edir. İqtisadiyyat obyektinə investisiya qoyan zaman o zəmanətli gəlirin əldə olunmasına ümid edir. İnvestisiya istehlakçısının istəyi – öz aktivlərini genişləndirmək üçün əlavə resursların əldə olunmasıdır.

İnvestisiya cəlbediciliyi – subyektin kapitalın cəlb edilməsini mümkün edən müxtəlif keyfiyyət xarakteristikalarından ibarət çoxtərəfli anlayışdır.

Ümumiyyətlə, investisiya cəlbediciliyi bir neçə amildən asılıdır:

- coğrafi mövqe və təbii ehtiyatların olması, çirklənmə dərəcəsi, istehsalat tullantılarını emal etmək bacarığı;
- məşğulluq səviyyəsi, ixtisaslaşdırılmış işçi qüvvəsinin olması, iqtisadi baxımdan fəal əhalinin sayı kimi əmək resursları;
- energetikanın, nəqliyyatın, mənzil, rabitə və maliyyənin inkişafı da daxil olmaqla regional infrastruktur;
- regionda tələb potensialı, gəlir səviyyəsi, daxili bazarın inkişafı və əhalinin alıcılıq qabiliyyəti;
- şirkətlərin fəaliyyət nəticələri, iqtisadiyyat sahələrinin strukturu və innovasiya sektorlarının mövcudluğu daxil olmaqla istehsalat potensialı;
- qanunvericiliyin, vergi qanunvericiliyinin və sosial gərginlik səviyyəsinin qiymətləndirilməsi daxil olmaqla, institusional mühit və sosial stabillik;
- regional büdcə və şirkətlərin dayanıqlılığı, o cümlədən, büdcənin balanslaşması, şirkətlərin borclarının vəziyyəti və onların maliyyə vəziyyətinin analitik qiymətləndirilməsi.

Fikrimizcə, investisiya cəlbediciliyi – aşağı risk səviyyəsində müvəqqəti sərbəst investisiya resurslarının ehtimal olunan səmərəli iqtisadi nəticələrinin əldə edilməsi mümkünlüyüdür. Bu zaman investisiya cəlbediciliyi indikatorları müxtəlif səviyyələrdə tətbiq edilir: şirkət, sahə, region, ölkə.

Təşkilin yekun mərhələsi layihənin gerçəkləşdiriləcəyi təşkilatın qiymətləndirilməsidir. Bütün layihənin cəlbediciliyi iştirakçı-şirkətlərin cəlbediciliyindən asılıdır.

İqtisadiyyatda investisiya resurslarının bölüşdürülməsi zamanı əsas kimi qiymət, yəni, sərbəst vəsait qoyulduqdan sonra əldə olunacaq gözlənilən gəlirdən istifadə olunur. Məhsulun yüksək qiymət səviyyəsini təklif edən iqtisadi rayonlarda onların investisiya potensialı daha faydalı olacaq, çünki kapital ondan səmərəli istifadə etmək iqtidarında olanlar arasında bölünür. Başqa sözlə desək, ən böyük investisiya cəlbediciliyi investorlara böyük gəlir təklif etməyə qadir olan regionda olacaq. Bundan çıxış edərək, bir sıra xarakteristikalara cavab verən iqtisadiyyat obyektini investisiya baxımından cəlbedici hesab etmək olar. Qoyulmuş pul vəsaitinin investorlar üçün cəlbedici olması vacibdir, bu zaman orta mənfəət və orta dərəcəli risk böyük rol oynayır.

Zənnimizcə, investisiyaların səmərəli idarə edilməsi üçün indikatorlar sistemini qruplaşdırarkən müxtəlif əsas tələbləri nəzərə almaq zəruridir. Bu indikatorlar ilə investisiya obyekti arasında məntiqi əlaqə qurulmalı, obyektivlik və elmi əsaslandırma təmin edilməli, hesablamalar aydın və müəyyən dərəcədə sadə olmalıdır. Nəticələrin ikili şərh olunma ehtimalı aradan qaldırılmalıdır.

Aparılmış tədqiqatlar əsaında belə nəticəyə gələ bilərik ki, hər bir sahibkarlıq subyektinin investisiya cəlbediciliyinin tərkibinə üç əsas element daxildir: onun fəaliyyət göstərdiyi iqtisadiyyat sahəsinin ümumi investisiya cəlbediciliyi, onun iqtisadi fəaliyyət həyata keçirdiyi iqtisadi sahənin innovasiya cəlbediciliyi və ayrıca olaraq sahibkarlıq subyektin rentabelliyi (şəkil 1.).




**Şəkil 1. Sahibkar subyektinin investisiya cəlbediciliyinin formalaşdırılması**
*Mənbə: şəkil müəllif tərəfindən tərtib olunub.*

Konkret sahibkarlıq subyektini seçmək üçün investorun ixtisaslaşdırılmış jurnallarda dərc olunan investisiya cəlbediciliyinin qiymətləndirilməsi məlumatlarını tətbiq etmək şansı var. Sahibkar tərəfindən investisiyalar üçün müvafiq obyektin seçildiyi ilkin şərti götürək. Bu halda onun məcmu investisiya cəlbediciliyinin tərkibinə aşağıdakı göstəricilər daxildir:

– Sahənin investisiya cəlbediciliyi. Bu investisiya obyektinə əhəmiyyətli təsir göstərə bilməyən xarici amildir. İnvestorlar üçün düzgün informasiyanı almaq vacibdir, çünki investisiya obyektinin investisiya cəlbediciliyinin artırılması məqsədi ilə onun fəaliyyətində və xarakteristikasında müsbət və mənfi məqamlar haqqında məlumat almaq olar;

– Sahə məhsullarına tələb. Rentabelliyin müəyyən edilməsi zamanı istənilən sahədə əsas kimi iqtisadiyyat sahələrinin bu və ya digər mallar və xidmətlərə ehtiyacı öyrənilir. Məhsula, xidmətlərə və ya mallara stabil tələbin mövcudluğu onların əhaliyə zəruri olması deməkdir, buna görə də müəyyən gəlir səviyyəsinə zəmanət mövcuddur. Sahə məhsullarına tələbin qeyri-stabil olduğu halda, rentabellik də aşağı olacaq;

– Malın çeşidlənməsi imkanı. Ən rentabelli sahələr yeni istehlak xüsusiyyətlərini səciyyələndirən yeni rəqabət məhsullarını formalaşdıran sahələr hesab olunur. İstehlakçıların tələbi yalnız bu istehsalçıya ödəmələr aparmağa imkanı var. Onlar hətta yüksək qiymətin ödənilməsinə də razıdırlar;

– Sahə üzrə tələb olunan xərclərin orta səviyyəsi. İstehsal xərcləri sahədə istehsal prosesinin müddəti, istehlak olunan resursların dəyəri, vergitutmanın xüsusiyyətləri ilə birbaşa bağlıdır. Nəzərə almaq lazımdır ki, xərclərin aşağı səviyyəsi daha yüksək mənfəət deməkdir.

Disserasiya işinin **"İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının və investisiya cəlbediciliyinin təhlili və qiymətləndirilməsi"** adlı II fəslində yaşıl energetikaya cəlb olunmuş investisiyalar və onların perspektivləri, kənd təsərrüfatı sahəsinə investisiyaların cəlb olunması imkanlarını qiymətləndirilməsi, turizm sektoruna xarici investisiyaların cəlb olunmasının təhlili kimi məsələlər təhlil edilir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı ilə bağlı böyük qayıdışın həyata keçirilməsi üzrə əhəmiyyətli tədbirlər görülür. İqtisadi infrastrukturun yaradılması üçün material-texniki bazanın formalaşdırılması, sosial və istehsal sahələri, yerli, respublika, regional və beynəlxalq səviyyələrdə layihələrin həyata keçirilməsi, müxtəlif nəqliyyat növləri ilə yanaşı, dəmir yolu şəbəkəsinin bərpası prosesləri azad edilmiş ərazilərdə sıx şəkildə həyata keçirilir. Füzuli beynəlxalq aeroportu istifadəyə verilib, Zəngilanda eyni tipli aeroport açılıb, Laçın beynəlxalq hava limanı 28 may 2025-ci ildə istifadəyə verilib. Bütün bu miqyaslı işlər əhəmiyyətli həcmdə investisiya tələb etmişdir. İlk öncə, investisiyalar azad olunmuş torpaqlarda enerji infrastrukturuna yönəlməlidir.Bu baxımdan Qarabağ və Şərqi Zənqəzur iqtisadi rayonlarının "yaşıl enerji" potensialı kifayət qədər böyükdür. Bu potensialın investisiyaların cəlb edilməsində əsas istiqamətlərinə aşağıda daha ətraflı baxacağıq.

Azərbaycanın "Paris Sazişi" çərçivəsində götürdüyü öhdəliklər 1990-cı il səviyyəsinə nisbətən 2030-cu ilədək istixana qazlarının emissiyalarını 35% azaldılmasını nəzərdə tutur. Bu tədbirlər ölkədə aşağı karbon emissiyalı enerji sektorunun formalaşması üçün şərait yaradıb (cədvəl 1.).

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2005-ci illə müqayisədə 2024-cü ildə istixana qazlarının emissiyası 15.772 mln. ton. $CO_2$ ekv./il artmışdır. Hər nəfər üzrə istixana qazlarının emissiyası da müvafiq olaraq 2005-ci illə müqayisədə 2024-cü ildə 681 ton $CO_2$ ekv./nəfər/il artmışdır. Lakin ÜDM üzrə PPP istixana qazlarının emissiyası – 0,459 ton azalmışdır. Bunun əsas səbəbi ÜDM-in artım dinamikasıdır.

**Cədvəl 1.**

**Azərbaycanda $CO_2$ emissiyalarının dinamikası**

| İllər | İstixana qazlarının emissiyası, mln ton $CO_2$ ekv. /il | İstixana qaz-larının emis-siyası hər nəfər üzrə, ton $CO_2$ ekv. / nəfər /il | İstixana qazla-rının emissiyası ÜDM üzrə PPP, ton $CO_2$ ekv. / ABŞ dolları /il | Əhali, mln nəfər |
|---|---|---|---|---|
| 2005 | 46,459 | 5,441 | 0,779 | 8,539 |
| 2015 | 58,032 | 6,034 | 0,405 | 9,617 |
| 2022 | 68,877 | 6,718 | 0,45 | 10,252 |
| 2023 | 62,550 | 6,061 | 0,29 | 10,320 |
| 2024 | 62.231 | 6.122 | 0.32 | 10.342 |

***Mənbə:*** *Statistical Review of World Energy 2024. 72nd edition. BP Energy Institute, 2024. URL:https://www.energyinst.org/statistical-review/resources-and-data-downloads (accessed 28.04.2025).*

Azərbaycanda ekoloji siyasətin transformasiyası qlobal və regional amillərin kompleksi ilə şərtlənir, bunların arasında yalnız beynəlxalq iqlim razılaşmaları deyil, həm də milli miqyasda kritik ekoloji çağırışlar mövcuddur. Uzunmüddətli quraqlıq dövrlərinin artması, təmiz su resurslarının tükənməsi və Xəzər dənizinin ekosistemində baş verən mənfi dəyişikliklər xüsusilə narahatlıq doğurur. Ekoloji risklər dövlət institutlarından təcili və sistemli reaksiyasını tələb edir.

Dövlətin enerji siyasətinin strateji istiqamətləri müasir qlobal tendensiyaları nəzərə alaraq formalaşdırılıb və enerji sektorunun kompleks modernizasiyasını əhatə edir. Əsas diqqət alternativ enerjinin inkişafına, karbohidrogen kompleksinin ardıcıl dekarbonizasiyasına və istehsal proseslərinin enerji səmərəliliyinin köklü artırılmasına yönəldilmişdir.

Hazırda ekoloji cəhətdən təmiz enerji mənbələrinin milli enerji balansındakı payı 17%-ə çatır, bu da 2030-cu ilədək 30%-ə qədər artırılması planlaşdırılır.

Külək və günəş enerjisi istehsalı sahəsində 700 megavattlıq genişmiqyaslı investisiya layihələrinin həyata keçirilməsi üçün aparıcı beynəlxalq enerji korporasiyaları ilə aktiv müzakirələr aparılır. Hökumət həmçinin ekoloji modernizasiya proseslərini sürətləndirmək məqsədilə dövlət-özəl tərəfdaşlıq mexanizmlərini nəzərdən keçirir.

Azərbaycanın enerji mənzərəsi dinamik transformasiyalar keçirir, elektrik istehsalı və beynəlxalq enerji əməkdaşlığı sahəsində əhəmiyyətli potensial nümayiş etdirir. 2022-ci ildə ölkə yalnız daxili enerji balansını tam təmin etməklə qalmadı, eyni zamanda 27 milyard kilovat-saat elektrik enerjisi istehsal edilərək, bundan 1,6 milyard kilovat-saat ixrac edildi.

Azərbaycanın strateji tərəfdaşları - Türkiyə, Rusiya, Gürcüstan və İran - enerji qarşılıqlı əlaqələrinin genişlənməsinə davamlı maraq göstərirlər. 2023-cü ilin əsas hadisəsi Bakıda baş tutan ABŞ-Azərbaycan Yaşıl Enerji Forumu oldu, burada alternativ enerjinin inkişafında innovativ yanaşmalar müzakirə edildi.

Doqquz amerikalı şirkət enerji mənbələrinin diversifikasiyası və bərpa olunan potensialın maksimum istifadəsi üzərində diqqət yetirərək Azərbaycanın enerji sektorunun transformasiyasını dəstəkləməyə hazır olduqlarını bildirdilər. 2040-cı ilədək proqnozlaşdırılan enerji gücləri respublikanın daxili tələblərini əhəmiyyətli dərəcədə üstələyir.

İnfrastruktur layihələrinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycanın, Naxçıvanın, Türkiyənin və İranın birləşdiriləcəyi yeni regional elektrik ötürücü xəttinin yaradılması planlaşdırılır ki, bu da regional enerji mübadiləsi üçün əlavə imkanlar açacaq.

Günəş enerjisinin texniki potensialı 115200 megavatt dəyərləndirilir, lakin bunun reallaşması əhəmiyyətli investisiya qoyuluşları tələb edəcək[7]. Sumqayıt Texnoparkında artıq illik gücü 50 megavat olan günəş panellərinin istehsalı fəaliyyət göstərir.

Külək energetikası üçün ən perspektivli ərazilər Abşeron yarımadası, Xəzərin sahil zonaları və Xəzər adaları hesab olunur. 2036-cı ilə qədər Xəzər dənizinin 7,2 qiqavattlıq külək energetikası potensialının öyrənilməsi üçün genişmiqyaslı proqram planlaşdırılır[8].

---

[7] Gulaliyev, M.G., Mustafayev, E.R. and Mehdiyeva, G.Y. 2020. Assessment of Solar Energy Potential and its Ecological-Economic Efficiency: Azerbaijan Case. Sustainability. 12(3). P. 1116. DOI: 10.3390/su12031116.

8 Алиев, Р.А. Водная безопасность в контексте устойчивого управления трансграничными водными ресурсами в Каспийском регионе. // Вестник МГИМО-Университета. 16(5).,2023, С. 71–98. DOI: 10.24833/2071-8160-2023-5-92-77-104

Strateji inkişafı müəyyənləşdirən əsas sənəd "Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə Dövlət Proqramı"dır ki, bu da 2004-cü ildən qəbul olunub.

Qlobal iqlim çağırışları kontekstində Azərbaycan enerji transformasiyasına kompleks yanaşma nümayiş etdirir. Ölkə yaşıl texnologiyalara fəal investisiya yatıraraq, yalnız enerji təhlükəsizliyini təmin etmir, eyni zamanda regionun davamlı inkişafına da töhfə verir. Beynəlxalq ekspertlər Azərbaycanın alternativ enerji sahəsindəki potensialını və strateji təşəbbüslərini yüksək qiymətləndirirlər.

Respublika hökuməti enerji sektorunun rəqəmsallaşması üçün intellektual idarəetmə sistemlərinin, müasir monitorinq və enerji rejimlərinin proqnozlaşdırılması texnologiyalarının tətbiqini nəzərdə tutan kompleks proqram hazırlamışdır. Enerji istehlakını optimallaşdırmağa və paylama şəbəkələrinin səmərəliliyini artırmağa imkan verən Smart Grid texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir.

